**18.07.2020: Xəbər**

**Xəzər Universitetinə virtual infotur təşkil olundu**

2020-ci il iyunun 18-də "Azərbaycan universitetlərinə virtual infotur" layihəsi çərçivəsində Facebook sosial şəbəkəsi vasitəsilə Xəzər Universitetinə virtual infotur təşkil olundu. Layihə Bakı şəhəri üzrə Təhsil İdarəsi və Sabunçu Gənclər Evinin birgə təşkilatçılığı ilə həyata keçirildi. Veriliş müddətində Xəzər Universitetinin təsisçi, Direktorlar və Qəyyumlar Şurasılın sədri professor Hamlet İsaxanlı və Tələbələrin cəlb olunması üzrə işçi qrupun rəhbəri professor Fuat Rəsulov universitet barəsində ətraflı məlumat verdilər və gəncləri maraqlandıran sualları cavablandırdılar. 1,5 saat davam edən canlı yayımı Azərbaycanın müxtəlif bölgələrindən min nəfərdən çox valideyn və abituriyentlər izlədilər.

Bu tədbirin keçirilməsində məqsəd –abituriyentlərin gələcək ixtisas və universitet seçimlərində köməklik göstərmək, Xəzər Universitetindəki yaradılmış şərait və imkanlarla tanış etmək idi. Virtual infoturu bu link vasitəsilə izləmək olar: https://youtu.be/L-Aq7zkc228

**Virtual Info Tour to Khazar University Organized**

On June 18, 2020, a virtual info tour to Khazar University was organized via Facebook social network within the "Virtual Info Tour to Azerbaijani Universities" project. The project was jointly organized by the Baku Education Department and Sabunchu Youth House. During the program, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Professor Fuat Rasulov, Head of the Working Group on Attracting Students to Khazar University, provided detailed information about the University and answered questions from young people. The 1.5-hour live broadcast was watched by more than thousand parents and applicants from different regions of Azerbaijan.

The purpose of this event was to assist applicants in their future career and university choices, and to familiarize them with the facilities and opportunities created at Khazar University.

The virtual info tour can be followed via this link: https://youtu.be/L-Aq7zkc228.